# XALQ ONA GÖRƏ İLHAM ƏLİYEVİ SEVİR Kİ...

*Müasir beynəlxalq koordinatlar sisteminin nizamı pozulub. Beynəlxalq hüquq "erroziya"ya uğrayıb. Bu reallığı şərtləndirən çoxsaylı motivlər və səbəblər mövcuddur. Onların sırasında bir amilin rolu xüsusi çəkiyə malikdir. Bu, ilk növbədə planetimizdə qlobal lider kəsiri-məhdudluğu ilə bağlı məsələdir. Bu gün ABŞ-a heç də Franklin Delano Ruzveltlər, Böyük Britaniyaya Uinston Çörçillər, Fransaya Şarl de Qollar və Almaniyaya Konrad Adenauerlər rəhbərlik etmirlər. Bu qlobal siyasi liderlərin müasir varisləri heç bir halda sələflərinə adekvat deyillər. Xələflər nəinki dünya miqyasında təhlükəsizliyin təminatına töhfə verə bilmir, bir çox hallarda öz davranışları ilə lokal, regional və beynəlxalq səviyyələrdə qarşıdurma mühitinin formalaşmasına rəvac verirlər. Bu baxımdan planetimiz, bəlkə də, heç vaxt indiki qədər təhlükəli olmamışdır.*



Çağdaş dünyamızın sadalanan acı reallıqları fonunda Prezident İlham Əliyev elə də böyük olmayan dövləti-Azərbaycanı beynəlxalq siyasətin subyektindən onun aktoruna çevirmişdir. Bu xüsusda Prezident İlham Əliyevin fikirləri reallığa adekvat gücünə malikdir: "Azərbaycan dünya miqyasında elə də böyük dövlət olmasa da sözünün məna və çəkisi böyükdür". Öz əməlləri ilə xalqının və dövlətinin sonsuz sevgisini qazanmış lider xoşbəxtdir. Məsələyə bu xüsusda yanaşdıqda böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt dövlət rəhbəridir. Xalqı öna görə cənab Prezidenti sevir ki, o, müasir Azərbaycan dövlətçiliyinin banisi ulu öndər Heydər Əliyev müəyyən etdiyi siyasi kursa sadiqdir və son 21 il ərzində ölkəmizi uca zirvələrə yüksəltmişdir. Xalqı ona görə prezidentini sevir ki, o, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diktəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Bu siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır.

Prezident İlham Əliyev "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək ictimai fəaliyyətə başlayan cənab İlham Əliyevin hələ 2003-cü ildə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm", - fikirləri ilə real məzmun kəsb etdi.

Bu mərhələ 2003-cü il 15 oktyabr tarixli prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini toplayaraq (76,86%) dövlətin ali rəhbəri seçilməsi ilə başladı.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu çoxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığıdır. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir.




Prezident İlham Əliyevin bütün diplomatik addımları milli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə hesablanmışdır. Belə unikal və uzaqgörən siyasi məqsəd daşıyan addımlardan birini Prezident İlham Əliyev 2011-ci ilin iyun ayında atdı. Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu. Bu xəbəri eşidən kimi radikal siyasi ünsürlər hay-həşir qaldırdılar ki, mövcud iqtidar Azərbaycanı Avroatlantik məkana inteqrasiya xəttindən uzaqlaşdırır. Mətləb isə ondan ibarət idi ki, mahir diplomat və dövlət xadimi İlham Əliyev Azərbaycanın dünyanın nəhəng universal beynəlxalq təşkilatı olan BMT TŞ-yə üzv olmasını əsas siyasi hədəf kimi müəyyən etmişdi. Bu hədəf xarici siyasət fəaliyyətinin çeviklik əmsalının kəskin artımı hesabına reallaşa bilərdi. Bu halda tərkibində 193 dövlətin olduğu BMT-dən sonra sayca ikinci mövqedə dayanan Qoşulmama Hərəkatına (QH) üzvlük həmin məqsədin reallaşması üçün geniş imkanlar aça bilərdi. Belə də oldu. 2011-ci il oktyabrın 24-də BMT TŞ-yə keçirilən seçkilərdə QH üzvləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səslə iki il müddətinə BMT TŞ-nin qeyri-daimi üzvü seçildi. Azərbaycan Respublikası müstəqilliyinin 20-ci ildönümündə tarixinin növbəti şanlı səhifəsini yazdı. Onun müəllifi böyük intellekt, iradə və qətiyyət sahibi Prezident İlham Əliyev idi.

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir.

Prezident İlham Əliyevin son 21 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə alsaq ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan, bir sıra nüfuzlu ekspertlərin "müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcək", - fikri təsadüfi sayılmamalıdır. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək 2006-cı ilə "Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə "Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft və qaz marşrutlarının reallaşmasına nail oldu. Dövlət başçısının qeyd etdiyi kimi, neft kəmərlərinin, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı. Eyni zamanda ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı". Söhbət ilk növbədə Cənub Qaz Dəhlizindən gedir. Onun yaradılması istiqamətində ilk addım olaraq 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında Strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu, növbəti ildə isə TANAP-ın çəkilişinə dair Azərbaycan və Türkiyə arasında tarixi saziş imzalandı. Bu prosesdə ən əsas həlqələrdən biri sərmayə qoyuluşu ilə bağlı idi. 2013-cü ildə bu məsələ də öz müsbət həllini tapdı. Şahdəniz-2 layihəsinə investisiya qoyuluşuna dair qərar qəbul edildi. 2014-cü ildə isə Cənub Qaz Dəhlizinin Bakıda təməlqoyma mərasimi keçirildi. 2015-ci ildə Qarsda TANAP-ın təməlqoyma mərasimi oldu. 2016-cı ildə analoji addım TAP layihəsi ilə bağlı atıldı. 2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan mərkəzdə "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənilməsi 2050-ci ilə qədər uzadıldı.

Nəhayət, 2018-ci il mayın 29-da Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə TANAP-ın rəsmi açılış mərasimləri oldu. 2019-cu ilin 30 noyabr tarixində isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılışı oldu. Cənub Qaz Dəhlizinin son hissəsi olan TAP kəməri üzrə işlər 2020-ci ilin 15 noyabr tarixində tamamlandı. Dekabrın 31-də isə Azərbaycan qazının birbaşa olaraq Avropa bazarına çıxışı tam təmin olundu.

Son 21 il ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda çox böyük nəqliyyat layihələri icra olub. Şərq-Qərb nəqliyyat marşrutu artıq reallaşıb. Hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində intensiv işlər görülür. Azərbaycan ərazisində bu dəhlizlə bağlı bütün işlər yerinə yetirilib. Bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün də imkanlar yaradır. Artıq ölkəmizdən keçən Şimal-Qərb nəqliyyat dəhlizi və hələ ki, istismara verilməyən, lakin potensialı olan Cənub-Qərb nəqliyyat dəhlizi çox böyük layihələrdir. Xüsusilə, 2019-cu ildə Azərbaycanın qlobal nəqliyyat qovşağı statusu daha da möhkəmlənmişdir. Çindən gələn ilk qatar Bakı-Tbilisi-Qars dəmir yolundan keçərək Avropaya çatmışdır. Milli iqtisadiyyata təkan verəcək, daşınma xərclərini azaldacaq dəmir yolu sistemi müasirləşdirilib və bu proses davam edir.

Prezident İlham Əliyevin uzaqgörən müdrik siyasəti sayəsində Azərbaycan son 21 il ərzində təkcə dünyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib etmir, eyni zamanda dünyada ümumbəşəri dəyərlərin qorunması və təbliği istiqamətində mühüm nailiyyətlərə imza atır. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamofobiya kimi təhlükəli meyillərin bir sıra dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı qlobal əhəmiyyət kəsb edir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnəkdir.

"Multikulturalizm bizim adət-ənənəmizdir. Multikulturalizm-dövlət siyasəti və ictimai sifarişdir. Multikulturalizm bizim həyat tərzimizdir",-deyən Prezident İlham Əliyevin təşəbbüsü ilə "Bakı prosesi"nin əsası qoyulmuşdur. Bu təşəbbüs BMT çərçivəsində yüksək dəyərləndirilmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtı ikiillik fasilə ilə iki müxtəlif böyük idman bayramlarına ev sahibliyi etmişdir. 2015-ci ildə tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarını keçirən Azərbaycan Respublikası, 2017-ci Ildə IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməklə mədəniyyətlər arasında unikal körpü rolunu oynamış və idman vasitəsilə sivilizasiyalararası barışıq və dialoqa böyük töhfə vermişdir. Prezident İlham Əliyev 2017-ci ili "İslam Həmrəylik İli" elan etmişdir. Cənab İlham Əliyevin islam həmrəyliyinə xidmət edən bu və digər təşəbbüsləri müsəlman dünyasında geniş rəğbət hissi ilə qarşılanmış və böyük siyasi rezonans doğurmuşdur.

2019-cu ilin 15 oktyabr tarixində Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Dövlətləri Təşkilatı) VII Zirvə görüşünün keçirilməsi və quruma sədrliyin Azərbaycana həvalə edilməsi, 25-26 oktyabr tarixlərində Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşünün keçirilməsi və Azərbaycana tərkibində BMT-yə üzv dövlətlərin üçdəikisinin təmsil olunduğu bu nəhəng beynəlxalq quruma 3 il müddətinə sədrlik etmək hüququnun verilməsi, həmin ilin 14 noyabr tarixində Azərbaycan paytaxtının Dünya dini liderlərinin II Bakı Sammitinə ev sahibliyi, 2019-cu ili oktyabrın 25-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququnu qazanması, həmin ildə Çin Xalq Respublikası ilə iqtisadi və siyasi münasibətlərini daha da inkişaf etdirərək Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə "orta marşrut"un fəal və mühüm iştirakçısı kimi yerini möhkəmləndirməsi və digər mühüm tədbirlər, heç şübhəsiz, Azərbaycanın müstəqil və milli maraqlara söykənən fəal xarici siyasət kursunun böyük uğurları kimi qiymətləndirilməlidir.

Bundan savayı, Prezident İlham Əliyevin müəyyən etdiyi dinamik xarici siyasət kursunun tələblərinə uyğun olaraq Avropa İttifaqı ilə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində sanballı addımlar atılmışdır. Avropa İttifaqı ilə münasibətlərin yeni mərhələyə keçidini təmin edəcək genişmiqyaslı "Strateji tərəfdaşlıq" sazişinin hazırlanması prosesində Azərbaycan öz milli maraqlarından çıxış edir və danışıqlar prosesi sonuncu mərhələdədir.

Prezident İlham Əliyevin Azərbaycan dövlətinin koronavirus infeksiyasına qarşı mübarizədə həmrəylik, birlik və məsuliyyətimizi daha da möhkəmləndirməklə bağlı çağırışları yalnız bir məqsədə xidmət edirdi: xalqımızı və dövlətimizi bu qorxulu infeksiyanın fəlakətli nəticələrindən hifz etmək. Elə bu niyyətlə də dövlət rəhbəri koronavirus pandemiyasına qarşı mübarizədə preventiv, proflaktik, ardıcıl və sistemli addımların atılmasını təmin etməklə xəstəliyin təsirlərinin minimuma endirilməsində nail olmaq üçün fədakarlıq nümunəsi göstərdi. Prezident İlham Əliyevin COVID-19 pandemiyasına qarşı 3 istiqamətdə (əhalinin həyatı və sağlamlığının qorunması; əhalinin sosial müdafiəsinin təmin olunması; iqtisadi fəallığın inkişaf etdirilməsi) müəyyən etdiyi mübarizə strategiyası səyəsində Azərbaycan bu ümumi bəlanın doğurduğu itkiləri minimuma endirən dövlətlər siyahısında oldu. Bu həqiqət Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi səviyyəsində bir neçə dəfə etiraf olunmuşdur. Xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin 10 aprel tarixində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, həmin il mayın 4-də isə Qoşulmama Hərəkatının Təmas qrupu çərçivəsində COVID-19 pandemiyasına qarşı milli, regional və qlobal səviyyədə mübarizəyə həsr olunmuş Zirvə görüşlərinin (videoformatda) təşkil edilməsi Azərbaycanın fors-major vəziyyətlərdə də yüksək idarəçilik mədəniyyətinə malik olduğunu və ümumi bəla olan pandemiyaya qarşı mübarizəyə böyük töhfə verdiyini təsdiqləyir. Qoşulmama Hərəkatının qeyd edilən Zirvə görüşündə Prezident İlham Əliyevin COVİD-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsi məqsədilə BMT Baş Məclisinin Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilmişdir. Nəticədə 2023-cü il dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi COVID-19 ilə mübarizəyə həsr edilən Xüsusi Sessiyası keçirilmişdir.



2022-ci ilin mart və noyabr aylarında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurası və BMT Baş Assambleyasında bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunmasına dair qətnamələr qəbul edilmişdir. Bundan əlavə, Azərbaycan koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-ə yaxın ölkəyə birbaşa və Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə maliyyə və humanitar yardımlar göstərmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan ordusu torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. 2020-ci il noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə noyabr ayının 10-da Prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyanın imzaladığı üçtərəfli Bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. Noyabr ayının 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabr ayının 1-də isə Laçın rayonu bir güllə atılmadan, bir nəfər şəhid vermədən geri qaytarıldı.

Ali Baş Komandan müharibə zamanı müxtəlif nüfuzlu əcnəbi televiziya kanallarına müsahibələr verdi və beynəlxalq aləmdə formalaşmış yanlış təsəvvürləri büsbütün dağıtdı. Müdrik Prezidentimiz bəzi xarici müxbirlərin ittiham xarakterli, böhtan səpkili, qərəzli mövqe nümayiş etdirən qeyri-obyektiv və dezinformasiya səciyyəli suallarını güclü məntiq, əsaslı fakt və dəlillərlə cavablandırdı, onları dəmir məntiqli arqumentləri əsasında susdurdu.

8 Noyabr - Zəfər Günü xalqımızın qürur mənbəyinə çevrilmiş şanlı tarixdir. Həmin tarixin üç qəhrəmanı var: Müzəffər Ali Baş Komandan, onun formalaşdırdığı yenilməz Ordu və dəmir yumruğa çevrilmiş Xalq. Bu reallıqda Prezident+Ordu+ Xalq sözləri sinonimləşmiş, tarixi Zəfərin simvollarına çevrildi.

2023-cü il sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qalmadı. Bir sutkadan da az davam edən tədbirlər nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərk-silah edildi. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Buna paralel olaraq, biz artıq Qarabağın erməni əhalisinin reinteqrasiya planını açıq şəkildə dərc etdik, bu plan internetdə də mövcuddur. Erməni əhalisinə öz evlərində qalmaqla bağlı çağırış edildi, çünki bizim tədbirlərin hədəfləri dəqiq xarakter daşıyırdı. Mülki infrastruktur, mülki obyektlər və mülki şəxslər zərər çəkmədilər. Artıq dediyim kimi, bütün tədbirlər 24 saatdan da az davam etdi. Bu müddət Ermənistanın qanunsuz hərbi birləşmələrinin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə təslim olması üçün kifayət etdi".

Uzun illər ərzində ilmə-ilmə işlənən, müxtəlif dövrlərdə Cənubi Qafqazla bağlı planları olan qüvvələrin dəstəyi ilə reallaşdırılmağa çalışılan "böyük Ermənistan" planı Azərbaycan liderinin uzaqgörən siyasəti, qətiyyəti və iradəsi sayəsində süquta uğradı, darmadağın edildi. Erməni "miatsum"u, "ikinci erməni dövləti" xəyalları birdəfəlik məhv edildi.

Qarabağda Azərbaycan xalqının qanını tökmüş, Xocalıda soyqırımı törətmiş hərbi canilər ələqandallı Bakıya gətirildi, onlara qarşı istintaq başlanıldı. İnsanlıq əleyhinə ağır cinayətlər törətmiş bu müharibə canilərinə qarşı sərt və ədalətli cəzanın tətbiq olunacağı labüddür.

Ulu öndər Heydər Əliyevin yaratdığı ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası 2024-cü il fevralın 7-də növbədənkənar Prezident seçkilərinə vahid namizəd - Müzəffər Ali Baş Komandan İlham Əliyevlə qatıldı. Müdrik xalqımızın 92,12 faiz səslə yenidən düzgün seçim edərək qalibiyyətlər tariximizin davamına səs verdi. Seçici fəallığı rekord səviyyəyə - 77 faizə yüksəldi.

2024-cü il həm də parlament seçkiləri ilə yadda qaldı. Hər iki mühüm siyasi hadisə - seçkilər suveren ölkəmizin bütün ərazisində keçirilmişdir. Miqyas və əhəmiyyətini nəzərə alaraq, Prezident İlham Əliyev sentyabrın 23-də VII çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı bu reallığı "tarixi hadisə" kimi xarakterizə etmişdir.

Ali Baş Komandan İlham Əliyev prezidentliyinin ilk ilindən başlayaraq hərbi gücümüzün artırılması, torpaqlarımızın işğaldan azad olunması vəzifəsinin icrası naminə ölkəmizin hərbi və təhlükəsizlik potensialının artırılmasına xüsusi diqqət ayırdı. Əgər 2003-cü ildə dövlətimizin müdafiə və təhlükəsizlik büdcəsi 135 milyon dollar təşkil edirdisə, yenilməz ordumuzun tarixi zəfərə imza atdığı 2020-ci ildə bu göstərici 1,9 milyard, 2021-ci ildə isə 2.7 milyard dollara yüksəlmişdir. 2024-cü ilin may ayında büdcə dürüstləşmədən sonra isə müvafiq xərclər 414 milyon dollar artırılmaqla 3,8 milyard dollardan 4,2 milyard dollara qaldırılmışdır. 2025-ci ilin dövlət büdcəsində isə müdafiə və təhlükəsizlik xərcləri rekord səviyyədə - təxminən 5 milyard dollar nəzərdə tutulmuşdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin təbirincə desək, "İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir".

Ölkəmizin hərbi-sənaye kompleksinin daha da möhkəmləndirilməsi və sürətli inkişafı, ilk növbədə, yerli hərbi təyinatlı məhsulların istehsalı, xarici tərəfdaşlarla yeni istehsalat sahələrinin yaradılması, istehlakı və ixracı ilə bağlıdır. Bu sahəyə böyük həcmdə maliyyə vəsaitlərin qoyulması və real nəticələrin hasil olunması əsas hədəfdir. Prezident İlham Əliyev bildirdi ki, "İlk növbədə, yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir. İkincisi, biz xarici mənbələrdən daha az asılı olmalıyıq". Qeyd edilən istiqamətdə atılan addımların dinamikası göstərir ki, artıq ciddi uğurlar əldə edilmişdir.

Bu reallıq fonunda Prezident İlham Əliyev parlament kürsüsündən bir daha Ermənistanın siyasi-hərbi rəhbərliyinə və onların miskin havadarlarına xəbərdarlıq etdi: "Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin".

Ölkəmizə qarşı permanent ideoloji təxribatlar davam etməkdədir. Cənab İlham Əliyev bu təxribatların heç bir nəticə verməməsinin və gələcəkdə də perspektivsiz olmasının motivləri sırasında iki amilə xüsusi önəm verir: xalqımızın güclü iradəsi və əyilməz milli ruhumuz. Eyni məntiqlə də ölkəmizdə istənilən ideoloji təxribatın kök ataraq real qüvvəyə çevrilməsini mümkünsüz hesab edir. Eyni zamanda arxayınlaşmaq da qəbuledilməzdir.

Bu addımlar içərisində gənc nəslin milli ruhda böyümə məsələsi xüsusi məna və əhəmiyyət kəsb edir, çünki anti-Azərbaycan siyasi dairələr, ilk növbədə, gənc nəslin şüuruna müdaxilə edib, onlardan öz çirkin niyyətlərinin həyata keçirilməsi üçün bir alət kimi istifadə etmək istəyirlər. Bu gerçəkliyi nəzərə alaraq, Prezident İlham Əliyev xarici ideoloji təxribatlar fonunda bilikli, savadlı və vətənpərvər gənclərin yetişdirilməsi vəzifəsinə diqqəti cəlb etdi: "Gənclərimiz xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır. Zatən qürurlu olmaq bizim şanlı müharibələrimizdən sonra, İkinci Qarabağ müharibəsindən və antiterror əməliyyatından sonra əgər biz qürurlu olmasaq, onda hansı xalq olmalıdır?!". Bu prosesdə dövlətimizin başçısı ailə və məktəbin üzərinə xüsusi məsuliyyətin düşdüyünü dilə gətirdi. Eyni zamanda cəmiyyətdə hökm sürən ab-havanın da gənc nəslin şüuruna, gələcəyinə ciddi təsir etdiyini qeyd etdi. Cənab Prezident, eyni zamanda deputatlara da xitabən söylədi ki, "...öz seçiciləri ilə görüşlər əsnasında bu məsələni daim diqqətdə saxlasınlar".

Prezident İlham Əliyev parlamentdə çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması məsələsini mühüm strateji vəzifə olaraq bir daha müəyyən etdi. Bu da səbəbsiz deyil, çünki əsas strateji vəzifə həll olunduqdan sonra, yəni ərazi bütövlüyü və suverenliyimizin tam bərpa edilməsi reallığında Ermənistandakı xunta rejiminin xarabalığa çevirdiyi torpaqlarımızda bərpa işlərinə dərhal start verildi. 2021-ci ildə bu məqsəd üçün dövlət büdcəsindən 2,2 milyard manat, 2022 və 2023-cü illərdə isə müvafiq olaraq 4,3 və 5,6 milyard manat maliyyə vəsaiti ayrıldı. Cari ildə isə bu göstərici 4,9 milyard manata bərabərdir. 2021-2024-cü ilin sonunadək eyni məqsəd üçün bütövlükdə 19 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulur. Böyük Qayıdış Proqramı da uğurla icra olunur. Artıq 8 mindən çox keçmiş məcburi köçkün ata-baba yurduna qayıtmışdır.

Prezident İlham Əliyevin müəyyən etdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Bu baxımdan faktlar özü danışır. Belə ki, 2003-cü ildə ölkəmizdə minimum aylıq əməkhaqqı cəmisi 9 manat təşkil edirdisə, hazırda bu rəqəm 345 manata bərabərdir. Başqa sözlə, 38 dəfə artım qeydə alınmışdır. Minimum aylıq pensiya 2003-cü ildə 20 manat təşkil edirdisə, indi 280 manatdır, yəni 14 dəfə artıb. Orta aylıq pensiya isə 24 manatdan 436 manata yüksəlmişdir, yəni 18,2 dəfə artım baş vermişdir.

Şəhid ailələri, müharibə əlilləri və müharibə veteranlarına dövlət qayğısı ən yüksək səviyyədə təmin olunmuşdur. 2007-ci ildə şəhid ailələri, 2008-ci ildə isə müharibə əlilləri üçün Prezidentin aylıq təqaüdü təyin edilmişdir. Bu müddət ərzində paytaxtda və regionlarda 3630 məktəb, 760-dək səhiyyə müəssisəsi tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Yuxarıda qeyd olunan iqtisadi və sosial yönümlü uğurlar təsdiqləyir ki, Prezident İlham Əliyevin postmüharibə dövrünün yeni reallıqları fonunda irəli sürdüyü mühüm strateji vəzifələrin icrası üçün kifayət qədər münbit şərait formalaşmışdır. Ən əsası xalq olaraq yumruq kimi birləşmişik, güclü siyasi iradə və maliyyə resurslarına sahibik. Bu reallıqda Ermənistan rəhbərliyin siyasi hoqqabazlığı və onun xarici havadarlarının siyasi aventürası da haqq işimizə mane ola bilməz. Bir qədər də açıq desək, nə ABŞ Konqresi və Dövlət Departamentinin "sanksiyalar diplomatiyası", nə Avropa İttifaqının "binokl diplomatiyası", nə Fransa dövlətinin "qırğı diplomatiyası", nə də Ermənistanın "80 faizlik sülh diplomatiyası" yenilməz ruhumuzu sarsıda bilməz. Ermənistanın və havadarlarının son davranışları əsrlərin süzgəcindən süzülüb gəlmiş bir həqiqəti təsdiqləyir: "Tarixin ən böyük dərsi odur ki, ondan heç kim dərs almır". Ermənistan və onun himayədarları da eyni yolu seçməkdə davam edərlərsə, bu halda Müzəffər Ali Baş Komandan İlham Əliyevin 23 sentyabr 2024-cü il tarixdə Azərbaycan Respublikası Milli Məclisinin VII çağırış ilk iclasında səsləndirdiyi sərt xəbərdarlığı dinləyib, ciddi nəticə çıxarsınlar: "Sadəcə olaraq, bizim şərtlərimiz yerində qalır. Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə birbaşa onlar cavabdehlik daşıyacaqlar və təbii olaraq, bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır".

**Elman NƏSİROV,**
**Milli Məclisin deputatı,**
**Dövlət İdarəçilik Akademiyası**
**Siyasi Araşdırmalar İnstitutunun direktoru,**
**siyasi elmlər doktoru, professor.**